# Azərbaycan qadınları ən gözəl sözlərə layiqdirlər



***Onlar sevgiləri, əməkləri və fədakarlıqları ilə bəşəriyyətin tərəqqi və intibahına öz layiqli töhfələrini verirlər. Onlar bizim analarımız, həyat yoldaşlarımız, bacılarımız, qızlarımızdır. Onlar gözəl, zərif və sədaqətlidirlər. Onlar bizim həyatımızın mənası olan qadınlardır.***

Qadın elə bir mələkdir ki, bizi uşaq ikən qoruyur, gənc ikən xoşbəxtliyimiz üçün çalışır, qocalanda isə təsəlli verirlər. Qadınlar dünyanın ən gözəl, qiymətli varlığıdır. Qadın sevinirsə, həyatından, taleyindən məmnundursa, cəmiyyətdə bir qayda olaraq rifah və harmoniya yaranır.

Azərbaycan xalqı ta qədim zamanlardan bu günə qədər anaya, qadına yüksək dəyər verən, onlara layiqincə hörmət və ehtiram göstərən xalqlardandır. Ulu öndər Heydər Əliyevin qurucusu olduğu milli dövlətçiliyimizdə qadının cəmiyyətdə rolunun yüksəlməsi üçün uğurlu işlər görülüb. Ölkəmizin inkişaf və tərəqqisində qadınlarımızın iştirakı artıbdur. Xoşbəxtlikdən, bu müdrik siyasət son illər böyük uğurla davam etdirilir.

Fikrimcə, Azərbaycan anaları bu gün dünyanın ən xoşbəxt anaları sayıla bilər. Çünki məhz bu analar şanlı qırx dörd günlük Vətən müharibəsində qeyri-adi şücaətlər, qəhrəmanlıqlar göstərərək doğma torpaqlarımızı yağı düşməndən azad edən yenilməz Azərbaycan əsgər və zabitlərini tərbiyə edib böyüdüblər. Onların igid, qeyrətli, qorxubilməz övladları Qarabağımızı, gözəl və bənzərsiz Şuşamızı qəddar düşmən caynağından xilas ediblər. Dünya bu cəsarətə, qətiyyətə, igidliyə heyran qalıbdır.

Mən Milli Məclisə deputat seçildiyim Quba rayonunda seçicilərimlə, xüsusilə müharibə veteranları və şəhid ailələri ilə tez-tez görüşürəm. Demək olar ki, istisnasız olaraq bütün sakinlər Prezident cənab İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə ölkəmizdə qazilərə və şəhid ailələrinə göstərilən davamlı diqqət və qayğıdan çox razıdırlar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun xətti ilə görülən geniş miqyaslı xeyriyyəçilik işləri də insanların dilindən düşmür, hər kəs ürəkdən minnətdarlıq edir. Hörmətli Mehriban xanım bu gün təkcə ölkəmizdə deyil, bütün dünyada mərhəmət və xeyirxahlıq rəmzinə çevrilibdir.

Azərbaycan qadınları ən gözəl sözlərə layiqdirlər. Mən fürsətdən istifadə edərək 8 Mart Beynəlxalq Qadınlar günü münasibəti ilə doğma Azərbaycanımızın bütün xanımlarını ürəkdən təbrik edirəm. Qoy həyatda onlara yalnız və yalnız səadət və xoşbəxtlik nəsib olsun!

***Anatoli RAFAİLOV,***
***Milli Məclisin deputatı***